**110 illik Yubileyin qeyd olunması**
**Bəstəkar Üzeyir Hacıbəyov**
**Anar və Ramazan Xəlilov**

*Mənbə: Üzeyir Hacıbəyovun Ev Muzeyi, Bakı. Direktor Səadət Qarabağli.*
*Üzeyir Hacıbəyovun irsinə həsr olunmuş HAJİBEYOV.com saytı*
*© 2001 Azerbaijan İnternational*
*Tərcümə: Gülnar Aydəmirova*
*Vebmaster: Arzu Ağayeva*

Azərbaycanlılar Üzeyir Hacıbəyovu (1885-1948) ən parlaq və sevimli bəstəkarlarından biri hesab edir. Lakin buna baxmayaraq o, Qərbdə yaxşı tanınmayıb. O Sovet musiqisinin Prokofyev, Şostakoviç, Xaçaturyan, Kabalevski və Dzerjinski kimi nəhəngləri ilə müqayisə edilir. Hətta bəzilərinin fikrincə adı sadalananlar içərisində Hacıbəyov birinci yeri tutur.

Hacıbəyov təkcə Azərbaycanda deyil, bütün Sovet İttifaqında "SSRİ Xalq Artisti" adına layiq görülən ilk bəstəkar idi. Bütün Sovet tarixi boyunca yalnız üç və ya dörd Azərbaycan musiqiçisi bu səviyyəyə qalxa bildi. O həmçinin "Lenin ordeni" və "Stalin Mükafatı"na da layiq görülmüşdü. O Stalin mükafatına iki dəfə—bir dəfə "Koroğlu" operasına (1937) və ikinci dəfə onun musiqili komediyası əsasında 1945-ci ildə çəkilmiş "Arşın Mal Alan" filminə görə layiq görülmüşdü.

1995-ci il sentyabrın 18-i Hacıbəyovun anadan olmasından 110 il keçir. Azərbaycanda müasir musiqi tarixində heç kim Azərbaycan musiqisinin Qərb və Şərq milli musiqi alətlərinin və musiqi formalarının özünəməxsus sintezi ilə olan indiki səviyyəsinin əsasını qoymaq üçün Hacıbəyov qədər iş görməmişdir.

1885-ci ildə anadan olan Üzeyir Hacıbəyovun həyatı həddən artıq siyasi xaos, çevriliş və keçid dövrünə təsadüf etmişdir. Həyatının ilk 32 ili Rus çarının hakimiyyət illərində keçmişdir. Sonrakı iki il isə gənc müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət illərində keçmişdir. Həyatının qalan 28 ili—1948-ci ildə 63 yaşında vaxtsız ölümünədək o Sovet hakimiyyəti altında yaşamışdır. Oşəkər xəstəliyindən səhhətinin ağırlaşması nəticəsində vəfat etmişdir.

Müharibənin faciəvi xaosu Hacıbəyova məlum idi; o, 1905 və 1917-ci il inqilabları, Sovet ordularının 1920-ci ildə Azərbaycana hücumu və hər iki Dünya Müharibəsinin şahidi olmuşdur. Çox vaxt bu hərbi istilaların nəticəsi xaosun digər formalarda təzahürü idi. Məsələn, 1920-1930-cu illər ərzində Azərbaycan dilinin əlifbası üç dəfə dəyişdirildi—Ərəbdən Latın əlifbasına, sonra da Kirilə. Bu proses təhsil və mədəni prosesə mane oldu və onu dayandırdı və bəlkə də bu, Hacıbəyovun fikirlərini musiqi səhnəsində şifahi olaraq təqdim etməsinə təsir göstərən faktorlardan biri idi (Aİ 1.3, Sentyabr 1993 nömrəmizə baxın).

Sovet hakimiyyəti altında ekonomik sistem əsaslı dəyişikliklərə məruz qaldı. Xüsusi mal müsadirə olundu və kütləyə paylandı. Əsrin əvvəllərində Bakının əsas küçələrində böyük ev və saraylar tikdirən neft maqnatları çox vaxt öz evlərindən köçürüldü və hətta bəzən öz evlərindəcə öldürüldü, evləri isə kütləvi müəssisələrə, çox vaxt muzeylərə çevrildi.

Böyük Güzəştçi

Lakin bütün bu səs-küylü dəyişikliklərlə baxmayaraq bir xüsusiyyət həmişə böyük dahinin xasiyyətini əks etdirmişdir. Hacıbəyov heç vaxt keçmişi və indiki zamanı rədd etmir, əksinə həmişə onları birləşdirmək və qovuşdurmağın yollarını arayırdı. O, çox güzəştə gedərdi. O, başqalarının bir-birinə zidd hesab etdikləri fikirləri sintez etmək qabiliyyətinə malik idi.

Maraqlıdır ki, hətta orta məktəbi oxuduğu Qori müəllimlər seminariyasındakı sənədlər də onun hətta təzyiq altında belə öz köklərini əsas tutmaq dəyanətinə malik olduğunu göstərir. 1900-cü il 15 dekabrda, onun 15 yaşı olarkən deyilir: "şagird Üzeyir Hacıbəyov töhmətləndirilmişdir, çünki o, öz ana dilində danışırdı."

Musiqi Laborotoriyası—Şuşa

Hacıbəyovun erkən təhsili əsasən qeyri-rəsmi təhsil idi. Demək olar ki, onun musiqi instinktinin əsas hissəsi osmos tərəfindən əldə edilib, çünki o tamtamilə musiqi ilə əhatələnmiş şəraitdə böyüyüb. Şuşa yaxınlığında Ağcabədi kəndində anadan olan Üzeyir məmur və kənd yazıçısı olan Abdul Hüseynin və onun gözəl xanımı Şirin xanımın ikinci övladı idi.

O vaxtlar Şuşa musiqi mirasına görə tanınır və oradan bir çox istedadlı musiqiçi və müğənni çıxdığına görə adətən "Qafqazın Musiqi Konservatoriyası" adlandırılırdı.

Bu gün Qarabağ ərazisində yerləşən Şuşa artıq 1992-ci ildən Erməni hərbi qüvvələri tərəfindən işğal olunub. Bütün Azərbaycanlılar bu ərazini tərk etmişdir. Hal-hazırda orada heç bir Azərbaycanlı yaşamır (güman olunan əsirlərdən başqa).

Lakin Hacıbəyovun Şuşada böyüməsi onun 1908-ci ildə 22 yaşında ikən çox az musiqi təhsili olmasına baxmayaraq bütöv bir opera yazmaq qabiliyyətini aydınlaşdırır. Onun gələcəkdə yazacağı yeddi opera və üç musiqili komediyalardan birincisi şair Füzuli tərəfindən yazılmış faciəvi məhəbbət əfsanəsi "Leyli və Məcnun" oldu. Ənənəvi lad musiqisi olan muğamın özünəməxsusluğu hər iki adətə uyğun alətləri işlətməklə Qərb opera janrı ilə birləşdirilmişdir.

Ənənəvi musiqi və Qərb musiqisi

Hacıbəyovun 1909-cu ildə yazdığı ikinci operası isə tamamilə birinciyə zidd formada yazılmışdır. Bu dəfə o, təmiz Avropa tərzini üstün tutmuşdur. "Şeyx Sənan" musiqi parçası kimi qiymətləndirildi, lakin onun mövzusu o dövr üçün həddən artıq qabaqcıl idi. Hacıbəyov deyirdi ki, nigah insanların millətindən və dinindən asılı olmamalıdır. Geniş mənada bu, birləşmənin bir növü idi. Lakin o zaman bunun əksinə getmişdilər.

Burada dindar bir şeyx Məkkəyə gedərkən gözəl bir gürcü qızı ilə tanış olur. Dəhşətlisi odur ki, qızın atası donuz otarandır və donuz şeyx üçün qadağan olunmuş heyvan hesab olunur. Sonda bu qadınla birgə olmaq üçün şeyx öz dinindən üz döndərir.

Deyilənə görə operanın gedişi zamanı bir çoxları özlərini təhqir olunmuş kimi hiss etdilər və zalı tərk etdilər. Bununla da Hacıbəyov anladı ki, bu dəfə zamanını həddən çox qabaqlayıb. Nəticədə o, qəti qərar qəbul etdi və operanın notlarını yandırdı.

Bəstəkarın köməkçisi Ramazan Xəlilov ondan bunu necə edə bildiyini soruşanda Hacıbəyov demişdi: "Mən operamı tələf etmədim. O, mənim yaradıcılığımın məhsuludur və ona görə də həmişə beynimdədir." Xəlilov deyirdi ki, Hacıbəyov 27 il sonra həmin təmtəraqlı musiqidən çoxlarının onun ən yaxşı işi hesab etdiyi "Koroğlu" operasını yazarkən istifadə etmişdir.

Qadınların xilaskarı

Hacıbəyov enerjisinin çoxunu kişilərin əsas mövqe tutduğu bir aləmdə qadınların rol və statusunu artırmağa sərf edirdi. Qadınların xilas olunması anlayışı onun bir çox əsərlərində özünü əsasən komediya və ya satira formasında göstərir. Məsələn, o, həyat yoldaşı seçmək prosesini və ya qadınların 1920-ci ildə Sovet rejimi tərəfindən qadağan olunanadək örtük örtməsini lağa qoymuşdur.

İntellektual Yardım

1921-ci ildə bəstəkar "Azərbaycanlılar Avropa musiqi mədəniyyətini öyrənməyə vaxt, əmək və pul sərf etməlidirmi?" mövzusunda esse yazdı. "Əgər uşaqlarımızdan Bax, Bethoven və Motsart kimi dahilərin yaradıcılığını gizlətsək onlara musiqi təhsili verə bilmərik."

Əksinə, Rus təsirinə məruz qalmış musiqiçilər tar, zurna və kamança kimi musiqi alətlərini qadağan etməyə cəhd göstərərkən Hacıbəyov və onun yoldaşları bu alətləri daha yüksək qiymətləndirərək onlara Qərb orkestrində yer verməyə çalışırdılar.

1927-ci ildə o, bəstəkar Müslüm Maqomayevlə birgə "Azərbaycan Xalq Mahnıları Toplusu" kitabını çap etdirdi. İlk dəfə idi ki, bu mahnılardan çoxu nota alınaraq sənədləşdirilmişdi. 1931-ci ildə o, Radio Komitəsinin rəhbərliyi altında ilk "Milli Xalq Alətləri üçün Not Orkestri" yaratmağa kömək etdi. Bu orkestr Qlinka (məşhur Rus orkestr bəstəkarı) və eləcə də Motsart, Şubert, Bize və digərlərinin əsərlərini ifa edirdi.

1936-cı ildə o, Filarmoniyada ilk Azərbaycan Xor Qrupunu yaratmağa kömək etdi. Onun üzləşdiyi ən çətin problemlərdən biri də Azərbaycan xalq mahnıları repertuarının təksəsli olması idi. Bununla belə harmonizasiya asanlıqla xalq musiqi tərzini təhrif edə və bəzən hətta ladı dəyişən zaman melodiya xəttini dəyişə bilərdi. Hacıbəyov bu problemi həmin hissələrdə "dördsəsli əvəzinə contrapuntal polifoniya və ikiləşən ahəng" işlətməklə aradan qaldırdı. Lakin bu köhnənin təzə ilə sintezinin yalnız daha bir misalıdır.

1945-ci ildə o, bu gün hətta ingilis dilində belə oxumaq mümkün olan "Azərbaycan Xalq Musiqisinin Əsasları" adlı kitab çap etdirdi. Hacıbəyovun qoyduğu mirasdan ən böyüyü Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Tofiq Quliyev və hətta muğamı cazla qatan Vaqif Mustafazadə kimi bəstəkarlar yetişdirmiş professional musiqi məktəbini (indi Musiqi Akademiyası adlanır) yaratmaqda etdiyi yardımdır. Həmin məktəb hələ də Azərbaycanda ən yüksək musiqi müəssisəsi  hesab edilir. Hələ də

Qərb və Şərq musiqi ənənələrininin sintezinə həsr olunmuş bu böyük binanın qabağında onun heykəli qoyulub.

Azərbaycanın Milli Himni

Hacıbəyovun əslində 1918-1920-ci illər Azərbaycan Demokratik Respublikası üçün yazdığı milli himn 1991-ci ildə yenidən qəbul olundu. Hacıbəyovun 110 illik Yubileyi ilə əlaqədar olaraq Azərbaycan Respublikası tarixində ilk dəfə Hacıbəyov tərəfindən yazılmış və Aydın Əzimov tərəfindən nizama salınmış Milli himnin tam piano harmonizasiyasını çap edərək biz dahi bəstəkarın xatirəsini yad edirik.

Anar Azərbaycanın ən məşhur yazıçı və düşüncə sahiblərindən biri kimi tanınır. 1985-ci ildə o Hacıbəyovun anadan olmasının 100 illiyinə ssenari yazmış və iki hissəli sənədli filmə rejissorluq etmişdir. Anar Yazıçılar İttifaqının sədridir.

94 yaşlı Ramazan Xəlilov Hacıbəyovun köməkçisi olmuşdur. O, Hacıbəyov mirasının yaddaşlarda qalmasına yardım edən ən məsuliyyətli şəxsdir. Həmçinin o, 1974-cü ildən bəstəkarın evində yaradılan Hacıbəyov Muzeyinin direktorudur. Cənab Xəlilov hələ də muzeydə fəal çalışır və artıq onların birgə işlədikləri illərin xatirələrini ətraflı surətdə sənədləşdirmişdir.

Hacıbəyov Muzeyi

Bu muzey əsasən Azərbaycan musiqisinin bu günki Qərb və Şərq alətləri və milli formalar sintezində olan vəziyyətinə  Hacıbəyovun etdiyi yardımı qiymətləndirənlər üçündür.

Bəstəkarın əsl evində yerləşən bu muzeydə bəstəkarın həyatı və məhsuldar yaradıcılığına dair bir çox şəkil, sənəd və yaddaş kitabçası sərgiyə qoyulmuşdur. Binanın zirzəmisində kiçik teatr yerləşir və orada Hacıbəyovun operaları ilə əlaqədar bəzi filmləri, məsələn bu il 50 illiyini qeyd edən "Arşın Mal Alan" filmini göstərməyi xahiş edə bilərsiniz. Muzeyin mühafizi 94 yaşlı Ramazan Xəlilov çox illər ərzində Hacıbəyovun şəxsi yardımçısı olub və hələ də bəstəkarın həyatı və zamanı ilə bağlı xatirələri haqda heyrətləndirici dərəcədə aydın danışır. (Jurnalımızın Aİ 3.1 sayında 45-ci səhifədəki şəklə baxın). Muzeyin telefonu: (99412) 92-45-4 və ya 92-43-52. Ketsxoveli 67, Bakı.